# Günəş batdığı yerdən çıxmayınca Qiyamət qopmaz. İnsanlar günəşin məğribdən çıxdığını gördükdə hamısı Allaha iman gətirəcəklər

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: Günəş batdığı yerdən çıxmayınca Qiyamət qopmaz. İnsanlar günəşin məğribdən çıxdığını gördükdə hamısı Allaha iman gətirəcəklər, bu Allahın { Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir".} (Əl-ənam, 158) deyə buyurduğu həmin zamandır. Mütləq ki, satıcı paltarı alıcıya təqdim etmək üçün önünə sərəcək, onlar alış-veriş etmədən və paltarı bükmədən Qiyamət qopacaq, mütləq ki, bir insan dəvəsinin südünü sağacaq, onu içmədən Qiyamət qopacaq, mütləq ki, bir insan hovuzunu suvağlayacaq, onu su ilə doldurmadan Qiyamət qopacaq, mütləq ki, sizlərdən biri yeməyini ağzına aparacaq, onu yemədən Qiyamət qopacaq.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Qiyamət gününün böyük əlamətlərindən biri günəşin şərqdən yox batdığ yerdən-məğribdən çıxmasıdır, bunu gördükdə insanlar hamısı iman gətirəcəklər. Bu zaman kafirə imanı, saleh əməli, tövbəsi fayda verməyəcək. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Qiyamət qəflətən, insanların öz gündəlik işləri ilə məşğul olduğu zaman gələcək. Satıcı paltarı alıcıya təqdim etmək üçün önünə sərəcək, onlar alış-veriş etmədən və paltarı bükmədən Qiyamət qopacaq. İnsan dəvəsinin südünü sağacaq, onu içmədən Qiyamət qopacaq, İnsan hovuzunu düzəldib, suvağlayacaq, onu su ilə doldurmadan Qiyamət qopacaq, İnsan yeməyini ağzına aparacaq, onu yemədən Qiyamət qopacaq.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee